# AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin 01 oktyabr 2014-cü il tarixli 1045 nömrəli əmri ilə təsdiq edilmişdir**

## Orta İxtisas Təhsilinin Dövlət Standartı

## Subbakalavr hazırlığı üzrə

# T Ə H S İ L   P R O Q R A M I

**İxtisasın şifri və kodu: 040108 – "Ailə və ev təhsili"**

**Bakı – 2014**

## 1. Ümumi müddəalar.

**1.1** Subbakalavr –səviyyəsinin 040108 - “Ailə və ev təhsili” ixtisası üzrə Təhsil Proqramı

“ Təhsil haqqında ” Azərbaycan Respublikasının Qanununa , Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş “Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı”na, “Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları”na, Azərbaycan Respublikası Təhsil nazirinin “Orta ixtisas təhsilinin ixtisaslar üzrə Təsnifatı”na uyğun hazırlanmışdır.

**1.2** İxtisas üzrə Təhsil Proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilatı – hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün orta ixtisas təhsili müəssisələrinin 040108 – “Ailə və ev təhsili” ixtisası üçün məcburidir.

**1.3** Strukturda istifadə olunan işarələr:

**OİT –** orta ixtisas təhsili.

**OİTP -** Orta ixtisas üzrə Təhsil Proqramı.

**ÜK** - Ümummədəni kompetensiyalar.

**PK** - Peşə kompetensiyaları.

**HF –** Humanitar fənlər bölümü.

**İPF –** İxtisas peşə hazırlığı fənlər bölümü.

**1.4** 040108 - “Ailə və ev təhsili” ixtisasının xarakteristikası.

**İTP** - nin mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi.

| Ixtisasın şifri və adı | Verilən peşə ixtisas dərəcəsi | Təhsil bazası | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|---|
| 040108 “Ailə və ev təhsili” | “Ailə və ev təhsili” ixtisası üzrə subbakalavr | Tam orta təhsil bazası | 3 il | 180 |

*Ümumi orta təhsil bazasından və qiyabi forma üzrə təhsil müddəti 1il artıqdır (ixtisas üzrə qiyabi formada təhsil nəzərdə tutulduqda.)

## 2. Məzunun ixtisas xarakteristikası və kompetensiyası.

**2.1** Subbakalavrın ixtisas xarakteristikası.

- subbakalvr fundamental və peşə hazırlığına uyğun olaraq ixtisası üzrə iş sahələrində peşə fəaliyyətinə, eləcə də ixtisası üzrə bakalavr təhsili almağa hazır olmalidir.
- mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələri: dövlət və qeyri dövlət təhsil müəssisələri, o cümlədən təşkilatlar, mərkəzlər, birliklər və s. işləyə bilər.
- mövcud qaydalara riayət olunmaqla müxtəlif təhsil müəssisələrində, ( məktəbəqədər təhsil müəssisələrində, ümumtəhsil məktəblərində, günüuzadılmış qruplarda, internat tipli məktəblərdə, uşaq evlərində ) ailədə fiziki imkanları məhdud , sağlam məktəbəqədər və kiçik məktəbyaşlı uşaqlarla çalışa bilərlər.

**2.2 Proqramın mənimsənilməsində məzunun kompetensiyasına qoyulan tələblər.**

**2.2.1 Məzun aşağıdakı ümummədəni kompetensiyalara (ÜK) yiyələnməlidir.**
- kollektivdə işləmək (ÜK - 1)
- ailədə fərdi şəkildə işləmək (ÜK - 2)
- öz peşəsinin sosial əhəmiyyətini dərk etmək və ona davamlı maraq göstərmək (ÜK - 3)
məqsəd və məzmunun pedaqoji texnologiyaların dəyişilməsinə uyğunlaşdırmaq ( ÜK - 4 )
- digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq (ÜK - 5)
- peşə fəaliyyətini tənzimləyən hüquqi biliklərə, etik normalara malik olmaq (ÜK - 6)-sağlam həyat tərzini gözləmək (ÜK - 7)
- problemli məsələlərin həllində qərar qəbul etmək və qiymətləndirmək ( ÜK - 8 )
- İKT - dən istifadə etməyi bacarmaq ( ÜK - 9 )
- şəxsiyyətinin inkişafına, özünətəhsilə nail olaraq peşəkarlığın artmasına çalışmaq (ÜK - 10 )
- fikrini düzgün, yığcam ifadə etmək (ÜK - 11)
- xarici dildə ən azı sadə mətnlər oxuyub fikrini ifadə etmək (ÜK - 12)
- beynəlxalq arenada işləmək (ÜK - 13)
- mədəniyyətlərarası dialoqa hazır olmaq (ÜK - 14)
- tənqid və özünütənqidə dözümlülük göstərmək ( ÜK - 15 )
- uşaqların həyatının təhlükəsizliyi və sağlamlığının qorunması üçün cavabdehlik (ÜK - 16)
- təhsilin keyfiyyətinin yüksəldilməsi üçün təhsilalanların fəaliyyətinə rəhbərlikdə məsuliyyətli olmaq (ÜK - 17)

### 2.2.2 Məzun aşağıdakı peşə kompetensiyalarına (PK) yiyələnməlidir

**İstehsalat pedaqoji sahəsi üzrə.**

- məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların tərbiyəsi, təhsili və təlimi ilə bağlı olan fənlərin əsas problemlərini, onların konkret tətbiqi sahələrini bilmək (PK - 1)
- uşaqların hərtərəfli inkişafı ilə bağlı qarşıya müəyyən vəzifələr qoymaq, onları həll etməkdə müvafiq metodlar seçməyi və tətbiq etməyi bacarmaq (PK -2)
- peşə fəaliyyətində İKT- dən istifadə etmək (PK – 3)
- ailədə uşaqların sağlamlığının və fiziki inkişafının möhkəmləndirilməsinə yönəlmiş tədbirlər təşkil etmək (PK - 4)
- sağlamlığın möhkəmləndirilməsi üçün tədbirlər planlaşdırmaq (PK - 5)
- rejim anlarının keçirilməsinə ( yuyunma, geyinmə, qidalanma ) rəhbərlik etmək ( PK - 6)
- fiziki tərbiyə üzrə gün rejiminin həyata keçirilməsi; səhər gimnastikası, fiziki mədəniyyət məşğələsi, gəzinti, hava, su prosedurları, idman əyləncələri, yarışları təşkil etmək (PK-7)
- müşahidələr əsasında uşağın sağlamlığı haqqında informasiya ilə tibb işçilərinin məlumatlandırılması (PK - 8)
- uşaqlarla ünsiyyətdə müxtəlif fəaliyyət növlərinin planlaşdırılması və təhlil edilməsi (PK - 9)
- oyun və yaradıcı fəaliyyətin təşkil edilməsi (PK - 10)
- əyani-inkişaf etdirici mühitin yaranması (PK - 11)
- məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların bayram və əyləncələrin təşkili, keçirilməsi və təhlili (PK - 12)
- məktəbəqədər və kiçik yaşlı uşaqların təlim prosesinin təşkilinə pedaqoji nəzarət, təhlili və giymətləndirilməsi (PK - 13)
- məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlar üçün didaktik vəsait hazirlamağı bacarmaq (PK - 14)
- ixtisasla bağlı anlayış və terminlərin mənasını bilmək və tətbiq etmək (PK - 15)

**Təşkilati - inzibatçılıq sahəsi üzrə:**

- qazanılmış biliklərə, bacarıq və vərdişlərə uyğun olaraq, ailədə və təhsil müəssisələrində kompleks məsələlərin həllində iştirak etməyə hazır olmaq (PK - 16)
- valideynlərlə ( qanuni nümayəndələrlə ) işin məqsəd və vəzifələrinin planlaşdırılması (PK - 17)

- uşaqların sosial - emosional, fiziki inkişafı, ailədə tərbiyəsi haqqında valideyinlərə fərdi məsləhətlərin verilməsi (PK - 18)
- valideyn iclaslarının keçirilməsi, təhsil müəssisələrində təşkil edilən tədbirlərə valideynlərin ( qanuni nümayəndələrin ) cəlb edilməsi (PK - 19)
- valideynlərlə aparılan işin təhlili və giymətləndirilməsi (PK -20)
- təhsil prosesinin metodiki təchizatı (PK - 2)
- metodik materialın ( mövzu – təqvim planının, fərdi iş planının ) işlənməsi (PK - 22)
- qabaqcıl iş təcrübəsinin ümumiləşdirilməsi, qiymətləndirilməsi və tətbiqi; (PK - 23)
-peşə fəaliyyətində yeni təlim texnologiyalarından, yeni ədəbiyyatdan istifadə edən əməkdaşların fəaliyyətinin təhlilinin təşkili
(PK - 24)

**Pedaqoji sahə üzrə**

- məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların müxtəlif fəaliyyət növlərinin təşkili (PK - 25)
- elektron kitabxanalardan, mətbuatdan, internetdən əldə edilən məlumatların tətbiq və təqdim edilməsi (PK - 26)
- hesabat, referat və pedaqoji çıxışlardan ibarət metodiki işləmələrin hazırlanması (PK -27**)**

## 3.Təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər.

### 3.1. Peşə fəaliyyətinin xarakteristikası

3.1.1. peşə fəaliyyətinin əsas istiqamətləri 040108 –“Ailə və ev təhsili” ixtisasi üzrə subbakalavr fəaliyyətinin əsas istiqamətləri:
- pedaqoji
-istehsalat-pedaqoji
-təşkilati-inzibatçılıq

3.1.2. Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər.

**Pedaqoji fəaliyyət üzrə**

-Ailədə, məktəbəqədər təhsil müəssisələrində,ümumtəhsil orta məktəblərində, ixtisasina uyğun gələn təşkilatlar,idarələr,müəssisələr,birliklər,tədris mərkəzlərində.
- günüuzadılmış məktəblərdə, internat tipli məktəblərdə,uşaq evlərində pedaqoji fəaliyyət göstərmək.
- peşə fəaliyyəti üzrə valideynlərlə maarifləndirici işlərin aparılması üsullarına yiyələnmək.

**İstehsalat pedaqoji fəaliyyət üzrə**

- məktəbəqədər və ibtidai təhsillə əlaqəli informasiyaların toplanması və istifadəsi üsullarina yiyələnmək.
- peşə fəaliyyətində kompüter texnologiyasindan istifadə etmək.

**Təşkilati inzibatçılıq fəaliyyəti üzrə**

- ixtisas üzrə seminarlarda,konfranslarda iştirak etmək,valideynlərlə iclaslar,disputlar təşkil etmək.
- qərarlar qəbul etməyi, nəticələrini proqnozlaşdırmağı, ümumiləşdirməyi bacarmaq.
- təhsil müəssisələrində həyata keçiriləcək məsələlərin həllində iştirak etməyə hazır olmaq.

## 3.2. Ümumtəhsil fənlər bölümü

| № | Fənlərin adı | Auditoriya saatları | Semestr üzrə bölgü | |
|---|---|---|---|---|
| | | | I semestr | II semestr |
| 1 | Azərbaycan dili(təlim rus d-də) ** | 60 | 2 | 2 |
| 2 | Azərbaycan (rus) dili | 90 | 4 | 2 |
| 3 | Ədəbiyyat | 90 | 2 | 4 |
| 4 | Xarici dil | 60 | 2 | 2 |
| 5 | Azərbaycan tarixi | 30 | | 2 |
| 6 | Tarix | 30 | 2 | |
| 7 | İnsan və cəmiyyət | 30 | | 2 |
| 8 | İqtisadiyyatın əsasları | 30 | | 2 |
| 9 | Cəbr və analizin başlanğıcı | 60 | 2 | 2 |
| 10 | Həndəsə | 30 | | 2 |
| 11 | İnformatika | 45 | 3 | |
| 12 | Fizika | 60 | 2 | 2 |
| 13 | Astronomiya | 30 | | 2 |
| 14 | Kimya | 60 | 2 | 2 |
| 15 | Biologiya | 30 | 2 | |
| 16 | Fiziki coğrafiya | 45 | 3 | |
| 17 | GÇH | 60 | 2 | 2 |
| 18 | Fiziki tərbiyə | 60 | 2 | 2 |

**Qeyd:** Ümumtəhsil fənləri bölümünə daxil olan fənlər Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.10.2006-cı il tarixli, 233 №li qərarı ilə təsdiq olunmuş "Azərbatcan Respublikasında ümumtəhsilin konsepsiyası (Milli Kurikulumu)"na uyğun müəyyənləşdirilir və məzun bu konsepsiyaya uyğun olan biliklərə nail olmalı. Birinci kurslarda ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

- **Azərbaycan bölməsində təhsil müəssisəsinin bu saat hesabına ixtisasın profilinə uyğun müəyyənləşdirdiyi fənnlər tədris oluna bilər.

* Orta ixtisas məktəblərinin təklifləri əsasında Azərbaycan bölməsində təhsil alanlar öz arzuları ilə həmin saat həcmində ikinci xarici dili və ya Azərbaycan dili və nitq mədəniyyəti fənnini seçə bilərlər.

** Seçmə fənlərə orta ixtisas məktəbi tərəfindən fəlsəfə, politologiya, sosiologiya, milli əxlaq və ailə etikası, dövlət və vətən mədəniyyəti, hüququn əsasları və s. humanitar, sosial-iqtisadi fənlər daxil edilə bilər.

*** Ümumtəhsil fənlər bölümü yalnız ümumi orta təhsil bazasından qəbul olunanlara adidir. Bu bölümdə seçmə fənlər üçün nəzərdə tutulan saatlar ixtisas yönümünə uyğun fənlərə verilir.

**** Humanitar fənlər bölümünə daxil olan "Azərbaycan dili" (xarici dildə təhsil alanlar üçün), "Azərbaycan tarixi", "Xarici dil" fənləri tam orta təhsil bazasından qəbul olunanlar üçün birinci, ümumi orta təhsil bazasından qəbul olunanlar üçün isə ikinci dərs ilindən başlayaraq tədris olunur.

***** İxtisasın peşə hazırlığı bölümünün seçmə fənləri orta ixtisas məktəbi tərəfindən müəyyənləşdirilir. Peşə hazırlığının seçmə fənləri bir neçə bloka ayrılır: ixtisas hazırlığının seçmə fənləri və ixtisaslaşmaların seçmə fənləri. Tələbə ixtisas hazırlığı bir fənn, seçdiyi ixtisaslaşma blokunun bütün fənlərini seçməlidir.

## 3.3. İxtisas üzrə fənn bölümləri,fənlərin kreditləri,onların mənimsənilməsinin nəticələri(bilik,bacariq və vərdişlər baxımından) və qazanılması nəzərdə tutulan kompetensiyaların kodları

| Fənn bölümü - nün kodu | Fənn bölümləri, onların mənimsənilməsinin nəticələri (bilik, bacarıq və vərdişlər baxımından) | Fənn bölməri üzrə kreditlə rin sayı | Fənlər | Fənlər üzrə Kredit-lərin sayı | Qazanılması nəzərdə tutulan kompeten-siyaların kodları |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **HF-BOO** | **Humanitar Fənlər bölümü subbakalavr**<br>**Bilməlidir:**<br>-Azərbaycan dilinin tarixi, dilin forma və üslubları, Azərbaycan dilindəki fonetik qayda və qanunları, Azərbaycan dilinin lüğət tərkibi, morfologiyası, sintaksis haqqında məlumatları<br>**Bacarmalıdır:**<br>-Ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə etməyi, ərizə, tərcümeyi-hal yazmağı<br>**Yiyələnməlidir.**<br>-İxtisasa uyğun materiallardan, proqramdan (kurikulum) istifadə etmək vərdişlərinə | **20** | HF-BO1<br>Azərbaycan dili (təlim rus dilində olanlar üçün) | **20**<br>6 | ÜK-8<br>ÜK-9<br>ÜK-11 |
| | **Bilməlidir:**<br>-Azərbaycan tarixinin əsas mərhələlərini, xronologiyasını, tarixi şəxsiyyətləri, əsas tarixi hadisələr haqqında, azadlıq, demokratiya yolunda qazandığı nailiyyətlər haqqında məlumatları<br>**Bacarmalıdır:**<br>-Dünyanın mədəni-tarixi mərkəzləri olmuş regionları tanımalı, Azərbaycan mədəniyyəti, onun dünya mədəniyyəti və sivilizasiyasında tutduğu yeri qiymətləndirməyi,<br>-cəmiyyətdə mədəniyyətlərarası dialoqlarda iştirak etməyi<br>**Yiyələnməlidir:**<br>-Uşaqlarda Vətənə məhəbbət, millətinə, dilinə, dininə, dövlət rəmzlərinə, Azərbaycan xalqının, həmçinin digər xalqların milli-mənəvi dəyərlərinə hörmət hissini yaratmaq vərdişlərinə | | HF-BO2<br>Azərbaycan tarixi | 4 | ÜK-11<br>ÜK-12<br>ÜK-14 |
| | **Bilməlidir:**<br>-Azərbaycan Respublikasının Konstitusiyasının əsas müddəalarını, təhsil sahəsində hüquqi münasibətləri, normativ sənədləri və əsas qanunvericilik aktlarını,<br>- insanların hüquq və azadlığını, təhsil sahəsində vətəndaşın hüquqlarını tənzimləyən mexanizmləri, əmək müqaviləsinin bağlanması və ona xitam verilməsi qaydasını | | HF-BO3<br>Seçmə fənlər | 10 | ÜK-5<br>ÜK-6<br>ÜK-10 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **İPF-BOO** | **Bacarmalıdır:**<br>-təhsil sahəsində, peşə fəaliyyətini tənzimləyən normativ hüquqi sənədlərdən istifadə etməyi, öz hüquqlarını müdafiə etməyi,<br>-vətəndaş prosessual-əmək qanun-vericiliyini hüquqi nöqteyi nəzərdən təhlil etməyi və qiymətləndirməyi<br>**Yiyələnməlidir:**<br>-peşə fəaliyyətinin hüquqi təminatı haqqında biliklərə və etik normalara<br><br>**İxtisasın peşə hazırlığı fənləri bölümü**<br>Bu bölümə daxil olan fənlərin öyrənilməsi nəticəsində subbakalavr<br><br>**Bilməlidir:**<br>-İKT-nin tədrisə tətbiqini, infor-matikanın əsas anlayışlarını, informasiyanın verilməsi və axtarışı, internetdən istifadəni<br>-təhsil prosesində texniki təh-lükəsizlik qaydalarına və gigiyenik tələblərə riayət etməyi<br>**Bacarmalıdır:**<br>-İKT-dən istifadə edərkən texniki təhlükəsizlik qaydalarına və gigi-yenik tələblərə əməl etmək,<br>-peşə fəaliyyətində məlumatları əldə etmək, redaktə etmək, tərtibat vermək, müasir informasiya texno-logiyasını təhsilə tətbiq etməyi<br>**Yiyələnməlidir:**<br>-İKT-dən istifadə edərək şəxsi inkişafa və peşəkar fəaliyyətə<br><br>**Bilməlidir:**<br>-Pedaqogikanın tarixini, ümumi nəzəri əsaslarını, məzmununu və pedaqoji prosesin qanunauyğun-luqlarını, məktəbəqədər və məktəb pedaqogikasının tədqiqat metod-larını, hər yaş dövrünün inkişaf xüsusiyyətlərini, uşaq bağçası ilə məktəb arasında əlaqələrin ardı-cılığını<br>**Bacarmalıdır:**<br>-Təlimin təşkili formalarına rəhbərlik etməyi, ənənəvi və fəal təlim metodlarını təhsil prosesinə tətbiq etməyi, qiymətləndirmə | **124** | İPF-BO1<br>İnformatika və təhsildə İKT<br><br>İPF-BO2<br>Pedaqogika | 4<br><br>6 | ÜK-11<br>ÜK-14<br>ÜK-15<br><br>ÜK-3<br>ÜK-10<br>ÜK-16<br>PK-2<br>PK-4<br>PK-6<br>PK-8<br>PK-12<br>PK-13<br><br>ÜK-3<br>ÜK-6<br>ÜK-17 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | aparmağı, uşaqların istedad və qabiliyyətlərini üzə çıxarmağı, təlimin inteqrativliyini təmin etməyi<br>**Yiyələnməlidir:**<br>-Uşaqların ailədə tərbiyəsinin elmi əsasları, ailədə tərbiyəedici şəraitin yaradılması, qrup və kollektivə rəhbərlik etmək, tərbiyə, təhsil və təlim prinsiplərinə əsaslanaraq, müasir təlim metodlarını İKT-yə tətbiq etmək bacarıqlarına.<br>Məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların fiziki, sosial-emosional, yaradıcı və intelektual inkişafı üçün şərait yaratmağı, sadə əmək vərdişlərinə yiyələnməsini təmin etməyi, kollektivdə qarşılıqlı münasibətlərin düzgün qurulması, uşaqlarda məntiqi və yaradıcı təfəkkürün formalaşdırılması vərdişlərinə | | | | PK-1<br>PK-2<br>PK-12<br>PK-15<br>PK-24 |
| | **Bilməlidir:**<br>-Psixologiyanın predmetini, metodlarını, psixi inkişafın qanunauyğunluqlarını, məktəbəqədər və kiçik məktəb yaşlı uşaqların yaş və fərdi psixi xüsusiyyətlərini<br>**Bacarmalıdır:**<br>-Uşaqlara məxsus xarakterik cizgiləri, xüsusi-fərdi, psixi xüsusiyyətləri formalaşdırmağı, məktəbəqədər və ibtidai təhsil müddətində idraki prosesləri inkişaf etdirməyi, iradi keyfiyyətləri tərbiyə etməyi<br>**Yiyələnməlidir:**<br>-Məntiqi mühakimə yürüdə bilmək, induksiya-deduksiya, analiz və sintez, təsnifatlaşdırma və sistemləşdirmə bacarıqlarına,<br>-uşaqların tələbat və maraqlarını müəyyənləşdirmək bacarıqlarına | | İPF-BO3<br>Psixologiya | 8 | ÜK-1<br>ÜK-2<br>ÜK-15<br>PK-1<br>PK-2<br>PK-15<br>PK-17<br>PK-18 |
| | **Bilməlidir:**<br>-orqanizmin anatomik və fizioloji xüsusiyyətləri və onun gigiyenik əsaslarını, hüceyrələr, toxumalar, orqanizmin vahidliyi prinsipi, böyümə və inkişafın ümumi qanunauyğunluqlarını, sinir sistemi, analizatorlar, dayaq hərəkət | | İPF-BO4<br>Uşaq anatomiyası, fiziologiyası və gigiyenası | 4 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | sistemləri, həzm-tənəffüs, ifrazat, dəri və s.orqanların xüsusiyyətlərini<br>**Bacarmalıdır:**<br>-uşağın daxili və xarici orqanlarının quruluşunu və funksiyasını, böyüyən orqanizmin inkişaf qanunauyğun-luqlarını müəyyənləşdirməyi<br>**Yiyələnməlidir:**<br>-xarici amillərin uşaq orqanizminə təsirini müəyyən edərək, qiymət-ləndirmək vərdişlərinə, tibb işçi-lərinin rəhbərliyi altında uşaq xəstəliklərinin profilaktikasını həya-ta keçirilməsi və gigiyenik tələblərə riayət etmək vərdişinə | | | | ÜK-5<br>ÜK-7<br>PK-4<br>PK-8 |
| | **Bilməlidir:**<br>-Ana dilinin fonetika və qrammatikasını, leksika, morfolo-giya, sintaksis, sintaktik əlaqələr, cümlə, quruluşu, cümlənin məqsəd və intonasiyaya görə növlərini, nitq inkişafı üzrə müvafiq biliklərə yiyələnərək, düzgün ədəbi tələffüz, ifadəli qiraət, qrammatik və üslubi cəhətdən səlist şifahi və yazılı nitqin imkanlarını;<br>**Bacarmalıdır:**<br>- öz nitqini formalaşdırmağı,<br>-Şifahi danışıq nitqi və onun qrammatik quruluşu haqqında mükəmməl məlumata malik olmalı, dilin imkanlarından geniş istifadə etməyi<br>**Yiləlnməlidir:**<br>-İfadəli qiraət, öz şifahi və yazılı nitqlərini qrammatik və üslubi cəhətdən səlist qurmaq, yazıda orfoqrafiya qaydalarını gözləmək vərdişlərinə; | | İPF-BO5 Azərbaycan dili və onun tədrisi metodikası | 8 | ÜK-9<br>ÜK-10<br>ÜK-11<br>PK-2<br>PK-3<br>PK-9<br>PK-11<br>PK-13<br>PK-15 |
| | **Bilməlidir:**<br>-sadə riyazi təsəvvürlərin öyrədilməsi metodikasını, əsas riyazi anlayışları, (çoxluq anlayışını, bərabər, qeyri-bərabər münasibətləri, ədədlər üzərində sadə əməliyyatları, forma, ölçü, kəmiyyət və həcm anlayışı) ədədin vahidlərdən ibarət tərkibi, ədədin özündən kiçik iki | | İPF-BO6<br>Sadə riyazi təsəvvürlərin formalaşması metodikası | 8 | ÜK-8 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | ədəddən ibarət tərkibi, məkana və zamana bələdlik, fəzada səmtləşmə haqqında məlumatları.) İbtidai riyaziyyat kursunun nəzəri əsaslarını<br>-müxtəlif əşyalar, onların təsvirləri, didaktik materiallar istifadə qaydalarını, ədədin onluq tərkibinə dair biliklər əsasında, toplama və çıxma, ədədi ifadə ilə ədədin müqayisəsini;<br>**Bacarmalıdır:**<br>-məktəbəqədər yaşlı uşaqlarda sadə riyazi təsəvvürəri formalaşdırmağı;<br>-uşaqların riyazi anlayışları düzgün qavramaları üçün didaktik materialdan düzgün istifadə etməyi, test tapşırıqları hazırlamağı.<br>-əyləncəli məsələ qurmaq və həlli prosesində düzgün istiqamət verməyi<br>-şagirdin intellektual və yaradıcı, məntiqi və mücərrəd təfəkkürünün təhliletmə, ümumiləşdirmə əqli nəticə çıxarma bacarıqlarının formalaşdırılmasını<br>**Yiyələnməlidir:**<br>-riyazi tapşırıqların yerinə yetirilməsində metodlardan istifadə etmək bacarıqlarına | | | | ÜK-9<br>PK-2<br>PK-21<br>PK-26 |
| | **Bilməlidir:**<br>-fiziki tərbiyə nəzəriyyəsinin əsas anlayışlarını, kiçik yaşlı uşaqlarla fiziki tərbiyə üzrə təlimi təşkili üsullarını, gün rejimi: səhər gimnastikası, məşğələ, gəzinti, hava su prosedurları;<br>- idman yarışlarının, əyləncə və bayramların planlaşdırılmasını;<br>**Bacarmalıdır:**<br>-Sağlam və xüsusi qayğıya ehtiyacı olan uşaqların gün rejimini təşkil etməyi, uşaqlarda mədəni-gigiyenik vərdişləri tərbiyə etməyi və möhkəmləndirməyi;<br>**Yiyələnməlidir:**<br>-əsas hərəkətəri icra etmək, səhər gimnastikası və fiziki tərbiyə üzrə məşğələnin keçirilməsinə verilən pedaqoji və gigiyenik tələblərə riayət etmək, onun hissələrinin ardıcıllıqla | | İPF-BO7<br>Fiziki tərbiyənin tədrisi metodikasi | 4 | ÜK-7<br>PK-6<br>PK-7<br>PK-8 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | keçirilməsi bacarıqlarına<br><br>**Bilməlidir:**<br>-canlı və cansız təbiətdə baş verən dəyişikliklərin müşahidəsini, ictimai həyat hadisələri, ətraf aləmlə tanışlıq üçün ekskursiyanı, təlim işini təşkil etməyi, gəzintidə, həyətyanı sahədə əmək tapşırıqlarının, təbiət guşəsində işin həcmini, məşğələləri planlaşdırmağı, Azərbaycan Respublikasının dövlət rəmzləri, sağlamlıq, din haqqında, təbii fəlakətlərdən və təhlükələrdən qorunma yollarını;<br>**Bacarmalıdır:**<br>-təbiətdə və ətraf aləmdə baş verən dəyişiklikləri görməyi və müqayisə etməyi, təbiətə qayğıkeş münasibət bəsləməyə istiqamətləndirməyi, təbiət guşəsini təşkil etməyi, -fövqəladə hallara hazır olmağı, mənəvi keyfiyyətlər, mənəvi borcunu dərk etməyi, qənaət etməyi və hüquqlarını qorumağı öyrətməyi;<br><br>**Yiyələnməlidir:**<br>-ətraf mühitin qorunması və mühafizəsi vasitəsilə qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq kimi mənəvi keyfiyyətlərə, oyun, əmək və əməli fəaliyyət zamanı əməkdaşlığın forma və metodlarına yiyələnmək bacarıqlarının kollektivə tətbiqinə, dərsdənkənar tədbirləri təşkil etmək vərdişlərinə | | İPF-BO8 Həyat bilgisi və onun tədrisi metodikası | 6 | ÜK-9<br>PK-11<br>PK-12<br>PK-17<br>PK-21<br>PK-24 |
| | **Bilməlidir:**<br>-musiqi əsərini dinləməyi, lirik və şən melodiyaları fərqləndirməyi, uşaqların musiqi yaddaşını inkişaf etdirərək, musiqi və mahnını fərqləndirməyi;<br>-mahnını ifadəli, səlist, yüngül, təbii səslə oxumağı öyrətməyi, uşaq musiqi alətlərində ifa etməyi, rəqs elementlərini;<br>**Bacarmalıdır:**<br>-melodiyaların düzgün oxunuşuna fikir vemək, musiqi alətinin | | İF-BO9<br>Musiqi və onun tədrisi metodikası | 4 | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | muşayiəti ilə, yaxud musiqi aləti olmadan müstəqil oxumağı, dinamikaya uyğun müvafiq hərəkət etdirməyi, ritmik əl çaldırmağı;<br>- Uşaqlara Azərbaycan xalq rəqslərinin elementlərindən ibarət rəqsləri öyrətməyi, sərbəst rəqslərdə tanış elemenlərdən yaradıcı istifadə etməyi, musiqi tərbiyəsi üzrə kollektivə rəhbərlik etməyi;<br><br>**Yiyələnməlidir:**<br>-uşaqlarda musiqiyə sevgi və maraq tərbiyə etmək.<br>-onların musiqi təəssüratlarını genişləndirmək.<br>-musiqi vasitəsilə Vətənə, Anaya, dogma təbiətə məhəbbət tərbiyə etməyi.<br>-bayram və əyləncələrin ssenarisini tərtib etməyi, planlaşdırmağı, musiqi dinləmək, xorla və notla oxumaq, nəzəri məlumatları çatdırmaq qabiliyyətinə | | | | PK-2<br>PK-11<br>PK-12<br>PK-21 |
| | **Bilməlidir:**<br>-ədəbiyyat və incəsənətin tərkib hissəsi kimi uşaq ədəbiyyatı haqqında məlumatı, həyat həqiqətlərini düzgün dərk etməkdə uşaq ədəbiyyatının rolu, XIX-XX əsr və müasir dövr uşaq ədəbiyyatı haqqında, uşaq ədəbiyyatına aid seçilmiş nümunələri, şair və yazıçılar haqqında məlumatları<br>**Bacarmalıdır:**<br>-muxtəlif janrlara aid əsərlərin ifadəli oxu (texniki, məntiqi, intonasiya) texnikasını, ədəbi əsərləri təhlil etməyi, uşaq ədəbiyyatı və şifahi xalq ədəbiyyatında;<br>-obraz, sözaltı məna və s. kimi ədəbiyyatşünaslıq elementlərini şagirdlərə öyrətməyi<br>**Yiyələnməlidir:**<br>-uşaq ədəbiyyatının müxtəlif janrlarını ifadəli söyləmək bacarığına;<br>-müasir təlim texnologiyalarından istifadə etmək;<br>-kiçik həcmli əsərləri səhnələşdirmək bacarığına; | | İPF-BO10<br>Uşaq ədəbiyyatı və ifadəli oxu | 8 | ÜK-9<br>PK-11<br>PK-12<br>PK-13<br>PK-26 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -yetişməkdə olan yeni nəslin milli ruhda tərbiyə olunmasında Azərbaycan uşaq ədəbiyyatı nümunələrinin ifadəli oxu texnikasına | | | | |
| | **Bilməlidir:**<br>-uşaqların nitqinin inkişaf etdirilməsi yollarını, ailədə nitq inkişafı üzrə işin formalarını, artikulyasiya aparatı və nitqi eşitmənin inkişafını;<br>lüğət ehtiyatının zənginləşdirilməsini, nitgin səs mədəniyyətinin tərbiyə edilməsini, nitqin qrammatik quruluşunu, danışıq nitqinin formalaşdırılmasının yollarını;<br>**Bacarmalıdır:**<br>-uşaqları sadə danışıq dilinə və rabitəli nitqə yiyələndirməyi, ətrafdakılarla ünsiyyət qurmağı, öz fikirlərini təqdim etməyi, uşaqların təmasda olduqları əşyaların adlarını, əlamətlərini, necə hərəkət etməsini düzgün ifadə etməyi, sadə ümumiləşdirmələr aparmağı;<br>Azərbaycan dilinin fonetika və qrammatikasını, şifahi nitq vasitəsilə uşaqlara öyrətməyi;<br>**Yiyələnməlidir:**<br>-nitqin inkişaf etdirilməsində müsahibələr təşkil etmək, didaktik oyunlar, şifahi-söz oyunlarının, yaradıcı nəql etmənin keçirilməsi yollarını, kitab üzrə iş, diafilm və cizgi filmlərinə baxış, onların saxlanılması və istifadəsinə verilən tələblərə əməl etmək bacarıqlarına;<br>-uşaqlarda hekayə və ya hadisəni emosional soyləmək, dilin bədii ifadə vasitələrindən istifadə etmək<br>-nitq etiketlərini yerində işlətmək vərdişlərinin formalaşması üçün təlimin təşkili bacarıqlarına, fəal təlim üsullarının tətbiqinə; | | İPF-BO11<br>Nitq inkişafı metodikası | 8 | ÜK-9<br>ÜK-11<br>PK-2<br>PK-9<br>PK-15<br>PK-21 |
| | **Bilməlidir:**<br>- təbiət materialları, müxtəlif materiallarla; gil və plastilin, ağac və faner, kağız və kartondan istifadə edərək, rənginə, formasına, tərkibinə görə onların birləşdirilməsi haqqında məlumatları, özünə xidmət əməyinin yolların; | | İPF-BO12<br>Texnologiya və onun tədrisi metodikası | 4 | ÜK-9<br>PK-2<br>PK-12 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | **Bacarmalıdır:**<br>-divar pannosu, herbarilər, hədiyyələr, maketlər, müxtəlif fiqurlar, kompozisiyalar qurmağı;<br>-uşaqların yaradıcı fəaliyyətində müxtəlif materialdan əl işi düzəltməyi, oyunların təşkilində bədii əsərlərin səhnələşdirilməsində onlardan istifadə etməyi;<br>-kulinariya, toxuculuq, tikiş işlərini;<br>-gidaların hazırlamasında sanitar qaydalara riayət etməyi;<br>**Yiyələnməlidir:**<br>-uşaqların yaradıcı fəaliyyətinə rəhbərlik etməyi, təbiət və tullantı materiallarından süjetli, dekorativ təsvirlər, müxtəlif modellər düzəltmək, sadə təhlükəsizlik qaydalarına əməl etmək vərdişlərinə<br><br>**Bilməlidir:**<br>-təsviri incəsənət; onun növləri və janrları haqqında məlumatları; natürmortun, illüstrasiyaların çəkilməsində ardıcıllığı, dekorativ tətbiqi sənət, memarliq və heykəltaraşlıq haqqında məlumatları;<br>- uşaqlarla ünsiyyətdə müxtəlif yaradıcı fəaliyyətin, əmək və oyunların təşkilinin mahiyyətini, nəzəri əsaslarını və metodikasını;<br>-təsviri fəaliyyət növləri haqqında (rəsm, yapma, kəsib-yapışdırma, quraşdırma) məlumatları;<br>-verilən tapşırıqların uşaqların yaş və fərdi xüsusiyyətlərinə uyğun olmasını;<br>**Bacarmalıdır:**<br>-uşaqların estetik inkişafını təmin etmək üçün;<br>-yaradıcılığa həvəsləndirən müvafiq mühit yaratmağı;<br>-rəsm, yapma, kəsib-yapışdırma, quraşdırma kimi müxtəlif yaradıcı fəaliyyət növlərindən ibarət məşğələləri planlaşdırmağı və keçirilmısini;<br>-qiymətləndirmə aparmağı;<br>-uşaqların incəsənət nümunələri vasitəsilə özünü ifadə etməyə həvəsləndirməyi;<br>- ailədə, qrup və ya sinif otağında uşaqların fəal şəkildə öyrənməsi, | | İPF-BO13<br>Təsviri sənət və onun tədrisi metodikası. | 4 | PK-14<br><br>PK-24<br><br>ÜK-9<br><br>PK-2<br><br>PK-12<br><br>PK-14<br><br>PK-24 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təsəvvür etməsi və yaradıcı mühütin təşkili;<br>-estetik inkişafın təmin edilməsi üçün valideyinləri maarifləndirməyi;<br>**Yiyələnməlidir:**<br>-təsviri sənətin elementlərinə əsasən sadə rəsm cəkmə qabiliyyətinə, didaktik vəsaitlər hazırlamaq, bayram və əyləncələr üçün bədii tərtibat vermək bacarıqlarına;<br>-uşağa öz bacarığını həyata keçirməyə imkan vermək;<br>-yaradıcı düşüncəni və özunu ifadəni asanlaşdırmaq üçün uşaqlarla interaktiv üsullarla işləmək bacarıqlarına;<br>-təsviri sənətin digər sahələrə inteqrativ yanaşma vərdişlərinə. | | | | |
| | **Bilməlidir:**<br>-nitqində çatışmazlıqlar olan uşaqlarla nitq pozuntularının təsnifatı: etimologiyası, nitqin anatomik-fizioloji mexanizmləri, uşaqların psixi inkişafının qanunauyğunluqıarı və nitq inkişafı ilə əlaqəsi;<br>-Azərbaycan dilində nitq səslərinin fiziologiyası, nitq qüsurlarının araşdırılması üsullarını;<br>**Bacarmalıdır:**<br>-ayrı-ayrı nitq qüsurlrının yaranma səbəblərini müəyyən etməyi, korreksiyası və qarşısının alınmasını;<br>**Yiyələnməlidir:**<br>-psixi inkişafında ləngimə ilə əlaqədar, nitq qüsurları olan uşaqların müxtəlif fəaliyyət növlərinin təşkili metodikasına;<br>-loqopedik biliklərin əsaslarını öyrənməklə nitq qüsurları olan uşaqlarla işləmək bacarıq və vərdişlərinə. | | İPF-BO14 Loqopediya | 6 | ÜK-3<br>ÜK-4<br>PK-15<br>PK-16 |
| | **Bilməlidir:**<br>-görmə və eşitmə qavrayışının çatışmazlıqları və s. uşaqların ünsiyyəti təlimi,<br>-müxtəlif fəaliyyət növlərinin təşkili metodikasını<br>**Bacarmalıdır:** | | İPF-BO15 Defektologiyanın əsasları | 4 | ÜK-3 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | -imkanları məhdud olan uşaqların oyun, əmək fəaliyyətini, fərdi və qrup şəklində məşğələlərin məqsəd və vəzifələrini planlaşdırmağı və rəhbərlik etməyi;<br>-görmə və eşitməsində, əqlində, dayaq-hərəkət sistemində qüsur olan uşaqların təlimini, onlar üçün pedaqoji şəraiti yaratmağı, oyun, əmək, yaradıcı fəaliyyət təşkil etməyi;<br>**Yiyələnməlidir:**<br>-peşə fəaliyyəti ilə əlaqədar aldığları bilikləri qrup, kollektiv ilə ünsiyyətdə, ailədə tətbiq etməyi,<br>-inklüziv təhsilin məqsədini, vəzifəsini, mahiyyətini<br>-xüsusi qayğıya ehtiyacı olan uşaqların psixo-fizioloji xüsusiyyət-lərini və kompensator imkanlarını bilərək, təlim-tərbiyənin spesifik xüsusiyyətlərinə;<br><br>**Bilməlidir:**<br>-savad təliminə hazırlıq anlayışını, məktəbəqədər yaşlı uşaqların təlimə hazırlıq vəziyyətini;<br>Onlarla işin vəzifələrini, oxu və yazı təlimnə hazırlıq üzrə işin məzmununu;<br>-savad təlimi üzrə işin təşkili xüsusiyyətlərini;<br>**Bacarmalıdır:**<br>-sözlərin səs təhlilini aparmağı, dilin fonem (səs) sisteminə ümumi bələdləşməyi, sait və samit fonemlər sisteminin mənimsənilməsi, hərflərin elementlərini yazmağı öyrətməyi;<br>**Yiyələnməlidir:**<br>-danışıq səslərini, müxtəlif dil vahidlərində (heca, söz, cümlə) düzgün tələfüz etmək, verilmiş hecalardan sözlər, sözlərdən cümlələr, cümlələrdən mətnlər qurmaq, çap hərfi ilə sadə sözlər yazmaq, oxu və yazı texnikasını, hüsnxətt qaydalarını mükəmməl öyrətmək metodikasına.<br><br>**Bilməlidir:**<br>- Tibbi biliklərin əsaslarını, sağlam | | İPF-BO16<br>Savad təlimi<br><br>İPF-BO17<br>Tibbi biliklərin əsaslari | 4<br><br>4 | PK-3<br>PK-8<br>PK-10<br>PK-13<br>PK-21<br><br>ÜK-11<br>PK-3<br>PK-13<br>PK-22 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | həyat tərzi anlayışını, yaş dövrünə uyğun amilləri, uşaq xəstəlikləri, onların təsnifatını, profilaktik qaydalarını, zədələnmələr və onların qarşısının alınması qaydalarını;<br>**Bacarmalıdır:**<br>- insanı bütöv bioloji sistem kimi və onun sağlam həyat tərzini təsəvvür etməyi;<br>- ilk tibbi yardım göstərilməsini;<br>**Yiyələnməlidir:**<br>- sağlam həyat yaşamaq vərdişlərinə; | | | | |
| | **Bilməlidir:**<br>-Səslərin artikulyasiyasını, intona-siyasını, nitq formasını, dilini öyrəndiyi ölkənin ənənələrini, ümumi və nitq mədəniyyəti haq-qında məlumatları, ifadə qayda-larının növlərini;<br>- Xarici dil dərslərində istifadə olunan metod, priyom, üsul və vasitələrini;<br>**Bacarmalıdır:**<br>-leksikadan istifadə etməyi;<br>-peşə fəaliyyətində xarici ədəbiyyatı (luğət üzrə) oxuyub, tərcümə etməyi<br>-fikrini yazılı və şifahi şəkildə ifadə etməyi;<br>-lüğət ehtiyatını daima zəngin-ləşdirməyi;<br>- xarici dilin qrammatikasını, oxu və yazı vərdişlərini öyrətməyi;<br>**Yiyələnməlidir:**<br>-xarici dilin xüsusiyyətlərini öyrətmə metodikasına;<br>-xarici dildə olan ədəbiyyat və mənbələrdən sərbəst istifadə vərdişlərinə;<br>-педагоjи инновасийалардан исти-фадя етмяк вярдишляриня; | | İPF – B018<br>Xarici dil və onun tədrisi metodikası | 10 | ÜK-1<br>ÜK-2<br>ÜK-9<br>ÜK-13<br>ÜK-14 |
| | **Bilməlidir:**<br>-müəllimin pedaqoji fəaliyyətdə yerini, pedaqoji bacarıq və qabiliyyətini, pedaqoji texnikanın tipik çatışmazlıqlarını, mimika və jestdən istifadə etməyi, müəllim emosionallığının təzahur formaları | | İPF-BO19<br>Seçmə fənlər | 20 | ÜK-1<br>ÜK-2<br>ÜK-9<br>ÜK-10<br>ÜK-11<br>ÜK-15<br>ÜK-17<br>PK-4<br>PK-5<br>PK-8<br>PK-10<br>PK-11<br>PK-15<br>PK-18<br>PK-21 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | və xüsusiyyətlərini;<br><br>-psixi inkişafda geri qalmanın səbəblərini (psixofizioloji, psixoloji və pedaqoji) inkişafda geri qalan uşaqların emosional-iradı xüsusiyyətlərini;<br>-korreksiyaedici pedaqogikanın ümumi-nəzəri məsələlərini, metodlarını, prinsiplərini və qanunauyğunluqlarını;<br>-fiziki inkişafın göstəricilərini, onların təyin edilməsi, ayrı-ayrı üzvlərin və sistemlərin gigiyenasını;<br>-inklüziv təhsilin məqsədini, vəzifəsini və mahiyyətini, xüsusi qayğıya ehtiyacı olan uşaqların xüsusiyyətlərini və kompensator imkanlarını;<br>-nəbz, arterial təzyiq ölçmə qaydalarını, zədələnmə zamanı ilk tibbi yardımın göstərilməsi qaydalarını;<br>-təhsil prosesində müasir təlim texnologiyalarından istifadə;<br>**Bacarmalıdır:**<br>-uşaqlarla ünsiyyətdəki çətinlikləri aradan qaldırmağı, pedaqoji ünsiyyəti müşahidə və təhlil etməyi, öz psixoloji vəziyyətin tənzimləməyi, kommunikativ təsir üsullarını tətbiq etməyi;<br><br>-sağlamlıq imkanları məhdud olan uşaqlarla işləməyi;<br><br>-korreksiyaedici pedaqogikaya aid xarici dildə olan ədəbiyyatı tərcümə etməyi, fərdi tədris planını tərtib etməyi;<br>-uşağın anatomiyası, fiziologiyası və gigiyenasını, yaş xüsusiyyətlərini tədris prosesində nəzərə almağı, uşaqlarla davranmağı;<br><br>-xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlam uşaqlarla birlikdə | | | | PK-24 |

| | | | | | |
|---|---|---|---|---|---|
| | təlim və tərbiyəsini təşkil etməyi;<br>-bədbəxt hadisələr və zədələnmələr zamanı ilk yardım göstərməyi;<br>**Yiyələnməlidir:**<br>- yüksək peşəkarlığa, pedaqoji ustalığa, müstəqil düşüncəyə, yaradıcı məntiqi fikrə sahib olan hər bir təhsil işçisi təhsilin dövlət standartlarına əsaslanaraq, müasir təlim texnologiyalarından istifadə etməyi,<br>-pedaqoji etikaya, pedaqoji takta,<br>-natiqlik məharətinə;<br><br>-uşağın şəxsiyyət kimi formalaşmasında üzərinə düşən vəzifələrin yerinə yetirilməsinə;<br><br>-sağlamlıq imkanları məhdud olan uşaqlarla işləmək bacarığına;<br>-innovasiya şəratində korreksion-tərbiyəvi prosesin məzmununun müasirləşdirilməsinə. | **30** | | | |
| | **Təcrübələr:**<br>Bu bölməyə aid olanların öyrənilməsi nəticəsində təhsil alan<br><br>**Bilməlidir:**<br>-müxtəlif yaşlı uşaqların gün rejimini;<br>-təlim prosesinin və uşaqların gün ərzində fəaliyyətinin təşkilini, gəzintı və axşam fəaliyyətinin təşkili və keçrilməsini;<br><br>**Bacarmalıdır:**<br>-gün ərzində uşaqların müxtəlif fəaliyyətlərinə rəhbərliyi və onlarla ünsiyyət qurmağı fərdi yanaşmağı, müxtəlif oyunlardan istifadə etməyi;<br>**Yiyələnməlidir:**<br>-müasir təlim metodlarından yerində istifadə etmək bacarıqlarına; istifadəyə; | **6** | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | **Yekun attestasiya;**<br><br>**Tam orta təhsil bazasında kreditlərin ümumi cəmi:** | **180** | | | | |

*Bütün bölümlərdə seçmə fənlər müvafiq şərtlərə (kompetensiyalara) uyğun orta ixtisas təhsili müəssisələri tərəfindən müəyyənləşdirilir.
*Fiziki tərbiyə idmanın növləri üzrə bölmələrdə keçirilir.
- 1 kredit 30 saata bərabərdir (15 saat auditoriya, 15 saat auditoriyadan kənar).

**4. 040108 – "Ailə və ev təhsili" ixtisası üzrə subbakalavr təhsil proqramının yerinə yetirilməsinin müddəti**.

**4.1** "Ailə və ev təhsili" ixtisasi üzrə
Subbakalavr təhsil proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr – 198;
Tam orta təhsil bazası - 146;
Nəzəri təlim üçün ayrılan həftə-ümumi orta təhsil bazası - 102;
Tam orta təhsil - 72;
O cümlədən təcrübələr üçün ayrılan həftələr - 20;
İmtahan sessiyası üçün ayrılan həftələr-ümumi təhsil bazası - 34;
Tam orta təhsil bazası - 24;

Tətillər üçün ayrılan həftələr-ümumi orta təhsil bazası - 38
Tam orta təhsil bazası - 26;
Buraxılış işinin hazırlanması və müdafiəsinə
(yekun dövlət imtahanına) ayrılan həftələr - 4

Təlimin tamamlayıcı mərhələsində psixoloji-pedaqoji fənlər üzrə kurs işi nəzərdə tutulmuşdur. Tələbələr kurs işi üçün pedaqogika, psixologiya və ya xüsusi metodikalardan mövzu seçə bilərlər.

**5.Maddi-texniki,tədris bazası və kadr potensialı.**

**5.1.** Orta ixtisas təhsili müəssisəsinin 040108-"Ailə və ev təhsili" ixtisasının müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan təhsil proqramına fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi üçün müvafiq İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter sinifləri, idman zalı, kitabxana və oxu zalı və s.ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır.Təhsil alanların orta ixtisas təhsili müəssisəsinin lokal şəbəkəsinə, internetə, elektron kitabxanalarına, axtarış sisteminə çıxışı təmin edilməlidir.
**5.2**.Fənlərin tədrisi, bir qayda olaraq, müvafiq ixtisaslar üzrə ali təhsilli, eyni zamanda müəyyən istehsalat və pedaqoji təcrübəsi olan müəllim heyəti tərəfindən aparılır.

**6. Tədris prosesinin forma və metodları**.

**6.1**. Subbakalavr hazırlığı, dərs və təcrübi dərs formalarında həyata keçirilir.
**6.2**. Subbakalavr hazırlığı üzrə tədris prosesində təlimin şifahi, əyani, praktik metodlardan, fəal təlim metodlarından, İKT-nin tədrisə tətbiqindən (elektron dərs) istifadə edilməlidir.

**6.3**. 040108 “Ailə və ev təhsili” üzrə subbakalavr hazırlığında istehsalat və pedaqoji təcrübələr nəzərdə tutulur. Təcrübələr müvafiq təhsil müəssisələrində, cəmiyyət , mərkəz və təşkilatlarda, keçirilə bilər.
**6.3.1**. “Ailə və ev təhsili” ixtisası üzrə təhsil alan subbakalavr valideynlərlə (qəyyumlar, himayəsində olan şəxslərlə), təhsil müəssisəsinin əməkdaşları ilə qarşılıqlı fəaliyyətdə olmalı, əməli təcrübəyə malik olmalı, valideynlərlə işin planlaşdırılması, sağlam və sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərinin qarşılaşdıqları çətinliklər, əldə etdikləri nailiyyətləri müşahidə və müzakirə etməli;
-ayrı-ayrı ailələrdə uşaqların müşahidəsi, öyrənilməsi üçün məqsəd və vəzifələri müəyyənləşdirməlidir;
- Subbakalavr təhsil müəssisəsinin əməkdaşları, tərbiyəçi və müəllimlərin, valideynlərlə (qəyyum və himayəsində olan şəxslərin) qarşılıqlı fəaliyyətinin nəzəri və metodiki əsaslarına yiyələnməlidir.

**7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə**.
**7.1**. - Subbakalavr – peşə ixtisas dərəcəsi üzrə təhsil proqramı, təhsil alanların dövlət attestasiyası ilə yekunlaşır.
**7.2.** Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş cari attestasiyalardan (fənlər üzrə attestasiyalarda) müvəffəqiyyətlə keçmiş tələbələr yekun attestasiyaya buraxılırlar.
**7.3**. Yekun attestassiya bütün təhsil alanlar üçün məcburidir, onun hazırlanmasına və təşkilinə ayrılan müddət 4 həftədir.
**7.4.** Yekun attestassiya ixtisas üzrə buraxılış yekun dövlət imtahanından (fənlərarası) ibarətdir.
**7.5.** Subbakalavrin topladığı kreditlərin sayı 180 olmalıdır. İxtisas üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Orta ixtisas təhsil müəssisələrində ixtisasın təhsil proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestassiya Komissiyasının qərarı əsasında “Subbakalavr” peşə ixtisas dərəcəsi verilir.
**7.6.** Yekun attestassiyanın təşkili və keçirilmə qaydaları Azərbaycan Respublikasının Nazirlər Kabineti Tərəfindən müəyyənləşdirilir.

**Razılaşdırılmışdır:**

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun direktoru

_______________ Q.Novruzov
«______» ________ 2014-cü il

Təhsil Nazirliyi Orta İxtisas Təhsili sektorunun müdiri

____________ K.Mikayılov
« ___» __________ 2014-cü il

Təhsil ixtisasları qrupu üzrə Dövlət Təhsil Standartlarını hazırlayan işçi qrupun sədri

____________ D.Hacıyeva

«___» _________ 2014-cü il

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi Metodiki-Şurasının “Məktəbəqədər və ibtidai təhsil” bölməsinin sədri

____________________ Y.Kərimov

«____» _______________ 2014-cü il